# Qarabağda quruculuq prosesi daha geniş vüsət alacaq

## Tikinti istiqamətində milli kadr hazırlığı işğaldan azad olunmuş ərazilərdə işlərin səmərəliliyini artıracaq

**Prezident İlham Əliyev tərəfindən Qarabağ və Şərqi Zəngəzurda quruculuq və bərpa prosesi əsas milli hədəflərdən biri kimi müəyyənləşdirilib. Bu sahəyə dövlət tərəfindən ayrılan 22 milyard manatdan əlavə, bölgəyə qardaş ölkələrin də əsaslı sərmayəsi yatırılır. Bu ərazilər indi Qafqazın ən böyük, geniş tikinti meydanına çevrilib.**



Sevindirici haldır ki, tikinti, bərpa prosesində yerli şirkətlər və mütəxəssislər üstünlük təşkil edir. Ancaq bu ərazilərdə tikinti işlərinin miqyasının qarşıdakı dövrdə dəfələrlə artacağını nəzərə alsaq, deməli, kadr ehtiyacı da yüksələcək. Bəs bu zərurət necə ödənilir? Bu məsələni tikinti üzrə kadr hazırlığını həyata keçirən ekspertlə müzakirə etdik.

### Kadr hazırlığı Qarabağdakı quruculuğa töhfə verir

Azərbaycanın iqtisadi inkişafına töhfə verən yüksəkixtisaslı memarlar, inşaatçı-mühəndislər məhz Azərbaycan Memarlıq və İnşaat Universiteti auditoriyalarında formalaşır. 1975-ci ildə Şərqdə Avropa tipli dünyəvi ali təhsil ocağı kimi fəaliyyətə başlayan və 50 illik şərəfli yol keçən AzMİU elm və təhsilin inkişafına mühüm töhfələr verməklə yanaşı, həm də ölkə iqtisadiyyatının strateji sahələri üzrə kadr hazırlığı həyata keçirir. Güclü elmi-pedaqoji potensialı sayəsində Azərbaycanın və regionun aparıcı elm-təhsil müəssisələrindən birinə çevrilən universitetin təsis edilməsi, milli təhsil tariximizdə müstəsna əhəmiyyət kəsb edən hadisələrdən biri olub.

Ölkənin inşaat sektorunu bir orqanizm kimi düşünərək bu sektoru bütün istiqamətlər üzrə ixtisaslı kadrlarla təmin edən universitetdə ən böyük fakültələrdən biri Tikinti-iqtisad fakültəsidir. Hələ tələbəlikdən inşaatçılarla, memarlarla, mühəndislərlə bir mühitdə yetişən universitetin iqtisadçıları bu gün işğaldan azad olunan ərazilərimizdə aparılan sürətli tikinti-quruculuq işlərində də milli kadrlar kimi müstəsna rol oynayırlar. Həmsöhbətimiz Tikinti-iqtisad fakültəsinin dekanı, dosent Turan Aslanova qeyd edir ki, Ümummilli Lider Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" və dövlət başçısı cənab İlham Əliyevin "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət göstərir" fikirləri ölkəmizin təhsil həyatında mühüm rola malik olan Azərbaycan Memarlıq və İnşaat Universitetinin fəaliyyətində də strateji hədəfləri müəyyən edir.

Ulu Öndərin dövründə başladılan genişmiqyaslı tikinti-quruculuq işləri inşaatla əlaqəli bütün sahələri, istiqamətləri inkişaf etdirmişdi. Məhz buna görə də o dahi şəxsiyyət uzaqgörən siyasəti ilə memarlıq və inşaat sahəsi üzrə Cənubi Qafqazın ən böyük universitetini - bugünkü AzMİU-nu yaratdı. İndi fakültəmizdə 5 elmlər doktoru-professor, 1 elmlər namizədi-professor, 26 elmlər namizədi-dosent, 6 elmlər namizədi-baş müəllim, 30 baş müəllim, 29 müəllim və assistent həyəti çalışır. Hazırda 1600-dən çox tələbəmiz var, şübhə yoxdur ki, bu say gələcəkdə daha da artacaq.

Turan Aslanova qeyd edir ki, 4 kafedranın fəaliyyət göstərdiyi fakültədə 5 ixtisas - iqtisadiyyat, menecment, biznesin idarə edilməsi, marketinq, davamlı inkişafın idarə edilməsi üzrə milli kadrlar yetişdirilir. Biz bu ixtisaslarla və yaratdığımız mühitlə hazırda ölkənin ən rəqabətədavamlı ali təhsil müəssisələrindən və fakültələrindən biriyik. Universitetdə tədris prosesi müasir standartlara uyğun təşkil olunur, rəqəmsallaşma və tədrisin dijital mərhələyə keçidi intensiv şəkildə həyata keçirilir.

Bundan əlavə, ali təhsil müəssisəsinin aparıcı xarici universitetlərlə əməkdaşlıq çərçivəsində ikili diplom proqramları təklif etməsi, beynəlxalq təhsil mühitinə inteqrasiyası və müxtəlif beynəlxalq reytinq cədvəllərində mövqeyini davamlı olaraq gücləndirməsi universitetin üstünlükləri sırasındadır. Eyni zamanda universitet əmək bazarının tələblərinə uyğun yeni ixtisaslar formalaşdırır və məzunların ixtisaslarına uyğun iş tapmaq imkanlarını artırır.

"Amalımız elə bir tədris mühiti yaratmaqdır ki, tələbələr yalnız auditoriyanı tərk edərkən deyil, dərs otağına daxil olarkən də həvəsli və motivasiyalı olsunlar. Bu yönümdə fakültədə inkişaf strategiyası müəyyən edilib və davamlı olaraq bu sənədə düzəliş və əlavələr edilir", - deyən Turan Aslanova qeyd edir ki, bəzən bu sadə bir yanaşma kimi görünə bilər. Amma hazırda dünya təhsil sistemində ön sıralarda dayanan Finlandiyada təhsil sisteminin əsas prioriteti məhz bu tezis üzərində qurulub. Hər hansı bir fənni tədris edən müəllim, öncə o fənni öyrəncilərə sevdirməyi bacarmalıdır. Bunun üçün bütün texniki imkanlar, avadanlıqlar, maddi-texniki baza mövcuddur. İstedadlı müəllim olmaq kifayət etmir. Məşhur alim Uşinskinin dediyi kimi, müəllim təhsilalana öyrənməyi öyrətməlidir və nəticəyönümlü iş qurmalıdır. Bizim arzumuz, nail olmaq istədiyimiz məqsəd budur. Tələbələr üçün yerli və xarici mütəxəssislərin moderatorluğu ilə infosessiyalar, təlimlər keçiririk. Olimpiadalar təşkil olunur. Onlarda milli-vətənpərvər ruhun daim yüksəlməsi üçün tarixi günlərdə tədbirlər keçirilir. Məqsəd keyfiyyətli mütəxəssis və layiqli vətəndaş yetişdirməkdir.

### Zəfərin reallıqlarını gerçəkləşdirən gənc mütəxəssislər formalaşır

Tək Qarabağ və Şərqi Zəngəzurda deyil, ümumiyyətlə, bütün ölkə ərazisində tikinti-inşaat işlərinin geniş vüsət alması bu sahədə kadrlara böyük ehtiyac yaradır. Turan Aslanova da qeyd edir ki, universitetdə tələbələrin işlə təminat məsələsinə çox ciddi şəkildə yanaşılır. Universitet müasir əmək bazarının tələblərinə uyğun ixtisaslar təklif edir və məzunların işlə təminatına xüsusi diqqət yetirir. İqtisadiyyat sahəsi xüsusilə vacibdir, çünki iqtisadiyyat bütün ölkə və cəmiyyətlərdə mühüm rol oynayır. Bu səbəbdən tikinti və iqtisadiyyat ixtisasına olan tələbat daim yüksəkdir. Universitetdə tədris olunan sahələrdə peşəkar mütəxəssislər yetişdirilir, onlar gələcəkdə ölkənin iqtisadiyyatında mühüm rol oynayacaqlar.

Universitetdə hər il karyera sərgiləri təşkil olunur. Həmsöhbətimiz bildirir ki, bu sərgilərdə ölkənin qabaqcıl istehsalat şirkətləri iştirak edir və tələbələr bu tədbirlərdə iş təklifləri alırlar. Bəzən elə sərgilər zamanı şirkətlər tələbələrə iş təklif edir və onlar dərhal işlə təmin olunurlar. Bundan əlavə, məzunlarla daim əlaqə saxlanılır və onlar üçün müxtəlif iş imkanları yaradılır. Məzunların işlə təminatını gerçəkləşdirmək üçün müxtəlif tədbirlər görülür. Bu, həmçinin müsbət statistikalarla da təsdiqlənir. Məsələn, 2023-2024-cü tədris ilində məzunların 75 faizi işlə təmin olunub. Bu rəqəm universitetin işlə təminat sahəsindəki fəaliyyətinin müsbət nəticəsini təzahür etdirir.

Təhsil müəssisəsində illərdir tədris ən qabacıl ölkələrin tətbiq etdiyi kredit sistemi ilə tənzimlənir. Turan Aslanova bildirir ki, hər il bu istiqamətdə müvafiq işlər aparılır. Digər tərəfdən, universitet müasir təhsilin prinsiplərini öyrənib tətbiq edir. Dünyanın ən güclü universitetləri ilə əməkdaşlıq edir, ikili diplom proqramı həyata keçirir. İngiltərənin Vestminister, Türkiyənin İstanbul Texnik universitetləri ilə olan ikili diplom proqramlarımız var. AzMİU-da bu proqramı əhatə edən ixtisaslar üzrə bütün meyarlar Vestminister və İstanbul Texnik universitetləri ilə birə-bir eynidir. İngiltərənin Northampton Universiteti, İspaniyanın Koruna Universiteti, Portuqaliyanın Leiria Politexnik İnstitutu, Parisin CNAM Universiteti, İtaliyanın Milan Texniki Universiteti ilə də ikili diplom proqramları həyata keçirilir. Türkiyənin Ankara Universiteti ilə elektrik və elektronika mühəndisliyi ixtisasında bakalavriat səviyyəsində, Ege Universiteti ilə nüvə elmlərində radiasiya və təhlükəsizlik ixtisasında magistratura səviyyəsində ikili diplom proqramları işlənir. Bundan başqa, universitet Türkiyə tərəfindən həyata keçirilən Mövlanə Mübadilə Proqramında 2013-cü ildən iştirak edir. Türkiyənin 6 universiteti ilə mübadilə protokolu imzalanmış və layihə çərçivəsində tələbə-müəllim mübadiləsi aparılmışdır. Həmçinin Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyinin əsas fəaliyyətlərindən biri olaraq 2017-ci ildən Orhun Mübadilə Proqramı fəaliyyətə başlamış və bu çərçivədə Türkiyənin bir sıra universitetləri ilə tələbə və müəllim mübadiləsi aparılmışdır.

Kadr hazırlığı prosesində əsas önəm verilən istiqamətlərdən biri də istehsalata inteqrasiyadır. Təhsil-biznes, təhsil-sənaye və təhsil-istehsalat vəhdətinin uğurla gerçəkləşməsi vacib məsələlərdəndir. Turan Aslanova qeyd edir ki, bunun üçün universitetin beynəlxalq reytinq cədvəllərində irəliləməsinə çalışırıq və bu istiqamətdə də ürəkaçan nəticələr əldə olunub. Hazırda AzMİU "The Times Higher Education", "Quacquarelli Symonds" (QS), RUR World University Rankings, "UI Green Metric World University", WeboMetrics, "UniRank" reytinq bazalarında ən yaxşı universitetlər sırasında qərarlaşır. Məsələn, 2024-cü ildə universitet ötən illə müqayisədə irəliləyərək, "Global GreenMetric" reytinqində 813-cü pillədən 632-ci yerə yüksəlib. Bu uğuru daha da dəyərli edən isə ölkəmizdən reytinqə daxil olan 12 universitet arasında AzMİU-nun 3-cü yerə yüksəlməsidir. Ötən il noyabrın 18-də COP29 çərçivəsində Bakıda "QS Quacquarelli Symonds" təşkilatı tərəfindən "Dünyanın ən yaxşı universitetlərinin reytinq siyahısı: dayanıqlılıq 2025"in nəticələri elan edildi. Sevindirici haldır ki, Azərbaycanın 7 universiteti bu siyahıda yer alıb ki, bizim ali təhsil müəssisəmiz də həmin yerli universitetlər sırasındadır.

30 illik Qarabağ həsrətindən sonra böyük Zəfər qazanan Azərbaycana düşünən beyinlər lazımdır ki, bu qələbəni qoruya, ölkənin müstəqilliyinin əbədiliyini təmin edə bilək. Müzəffər Azərbaycana layiq kadrlar yetişdirən AzMİU Zəfərin reallıqlarını gerçəkləşdirən mütəxəssis hazırlığında daha böyük uğurlar əldə edəcək.



*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 27 fevral (№ 44).- S.10.